| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 30.11.2020 |
| QEYDİYYAT NÖMRƏSİ | 474 |
| ADI | Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında” 1993-cü il 8 yanvar tarixli 9 nömrəli, “Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında” 1993-cü il 9 mart tarixli 140 nömrəli, “Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1993-cü il 6 avqust tarixli 438 nömrəli, “Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında” 1994-cü il 5 may tarixli 176 nömrəli, “Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında” 1994-cü il 10 may tarixli 185 nömrəli, “Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1997-ci il 5 dekabr tarixli 135 nömrəli, “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 2001-ci il 1 mart tarixli 52 nömrəli, “Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydasının təsdiq edilməsi barədə” 2001-ci il 3 may tarixli 87 nömrəli, “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” 2001-ci il 2 avqust tarixli 132 nömrəli və “Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında” 2002-ci il 29 aprel tarixli 74 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 04-12-2020, Nəşr Nömrəsi: 254), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2020, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1417) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 04.12.2020 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 220.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN | 14202011300474 |

| | |
|---|---|
| **QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **09.12.2020** |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında” 1993-cü il 8 yanvar tarixli 9 nömrəli, “Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında” 1993-cü il 9 mart tarixli 140 nömrəli, “Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1993-cü il 6 avqust tarixli 438 nömrəli, “Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında” 1994-cü il 5 may tarixli 176 nömrəli, “Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında” 1994-cü il 10 may tarixli 185 nömrəli, “Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1997-ci il 5 dekabr tarixli 135 nömrəli, “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 2001-ci il 1 mart tarixli 52 nömrəli, “Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydasının təsdiq edilməsi barədə” 2001-ci il 3 may tarixli 87 nömrəli, “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” 2001-ci il 2 avqust tarixli 132 nömrəli və “Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında” 2002-ci il 29 aprel tarixli 74 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarına 2 nömrəli əlavə - “Sosial sığorta haqları ödəyən vətəndaşlara xəstəlik vərəqələrinin verilməsi qaydası haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci və 4-cü hissələrdə “müalicə idarələrinin” sözləri “tibb müəssisələrinin” sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissənin birinci abzasında “yuxarıdakı səhiyyə idarələri” sözləri “aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

1.3. 5-ci hissə üzrə:

1.3.1. birinci abzas üzrə:

1.3.1.1. birinci cümlədə “müalicə idarələrinin (şöbələrin, kabinələrin)” sözləri “tibb müəssisələrinin” sözləri ilə əvəz edilsin;

1.3.1.2. ikinci cümlədə “müalicə idarələrinə” sözləri “tibb müəssisələrinə” sözləri ilə və “müalicə idarələrinə (şöbə, kabinə)” sözləri “tibb müəssisələrinə” sözləri ilə əvəz edilsin;

1.3.2. ikinci abzasda “müalicə idarələri (şöbələr, kabinələr)” sözləri “tibb müəssisələri” sözləri ilə və “müalicə idarələrinin” sözləri “tibb müəssisələrinin” sözləri ilə əvəz edilsin;

1.4. 8-ci hissə üzrə:

1.4.1. birinci cümlədə “müalicə idarəsində” sözləri “tibb müəssisəsində” sözləri ilə əvəz edilsin;

1.4.2. “Qeyd”də “müalicə idarələrində” sözləri “tibb müəssisələrində” sözləri ilə əvəz edilsin;

1.5. 9-cu hissənin ikinci abzası üzrə:

1.5.1. birinci cümlədə “müalicə idarəsində” sözləri “tibb müəssisəsində” sözləri ilə əvəz edilsin;

1.5.2. üçüncü cümlədə “müalicə idarəsinin” sözləri “tibb müəssisəsinin” sözləri ilə əvəz edilsin;

1.6. 11-ci hissə üzrə:

1.6.1. birinci cümlədə “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilsin;

1.6.2. üçüncü cümlədə “Səhiyyə” sözü “Tibb” sözü ilə əvəz edilsin;

1.7. 12-ci hissənin birinci abzasının birinci cümləsində “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilsin;

1.8. 14-cü hissədə “müalicə idarəsinə” sözləri “tibb müəssisəsinə” sözləri ilə əvəz edilsin;

1.9. 15-ci hissənin birinci cümləsində “müalicə idarələrində” sözləri “tibb müəssisələrində” sözləri ilə əvəz edilsin;

1.10. 16-cı hissənin birinci cümləsində “rayon (şəhər) səhiyyə idarəsi” sözləri “ərazi üzrə dövlət tibb müəssisəsi” sözləri ilə əvəz edilsin;

1.11. 18-ci hissənin dördüncü abzası üzrə:

1.11.1. birinci cümlədə “müalicə-profilaktik idarələri” sözləri “tibb müəssisələri” sözləri ilə və “müalicə idarəsində” sözləri “tibb müəssisəsində” sözləri ilə əvəz edilsin;

1.11.2. ikinci cümlədə “müalicə idarəsinin” sözləri “tibb müəssisəsinin” sözləri ilə əvəz edilsin;

1.11.3. üçüncü cümlədə “müalicə-profilaktik idarəsi” sözləri “tibb müəssisəsi” sözləri ilə əvəz edilsin;

1.12. 25-ci hissənin üçüncü abzasında “Müalicə-profilaktika idarələrinin” sözləri “Tibb müəssisələrinin” sözləri ilə və “müalicə-profilaktika idarələri” sözləri “tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

1.13. 27-ci hissə üzrə:

1.13.1. “a)” abzasında “səhiyyə nazirliyi sisteminin” sözləri “dövlət səhiyyə sisteminin” sözləri ilə əvəz edilsin;

1.13.2. “b)” abzasında “yerli müalicə idarələrindəki” sözləri “ərazi üzrə tibb müəssisələrindəki” sözləri ilə və “yerli müalicə idarəsinin” sözləri “ərazi üzrə tibb müəssisəsinin” sözləri ilə əvəz edilsin;

1.14. 29-cu hissə üzrə:

1.14.1. birinci abzasda “Müalicə-profilaktika idarələri” sözləri “Tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

1.14.2. ikinci abzasda “Müalicə-profilaktika idarələrində” sözləri “Tibb müəssisələrində” sözləri ilə əvəz edilsin;

1.14.3. üçüncü abzasda “müalicə-profilaktika idarələrinin” sözləri “tibb müəssisələrinin” sözləri ilə əvəz edilsin;

1.15. 30-cu hissənin birinci abzasında (hər iki halda) “müalicə idarələri” sözləri “tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

1.16. 31-ci və 32-ci hissələrdə “müalicə idarəsinin” sözləri “tibb müəssisəsinin” sözləri ilə əvəz edilsin;

1.17. 35-ci hissədə "müalicə-profilaktika idarələrinin" sözləri "tibb müəssisələrinin" sözləri ilə əvəz edilsin;
1.18. 36-cı hissə üzrə:
1.18.1. ikinci abzasda "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;
1.18.2. səkkizinci abzasın ikinci cümləsində və doqquzuncu abzasda "müalicə idarəsinin" sözləri "tibb müəssisəsinin" sözləri ilə əvəz edilsin;
1.19. 38-ci hissə üzrə:
1.19.1. birinci abzasda "müalicə idarəsindəki" sözləri "tibb müəssisəsindəki" sözləri ilə əvəz edilsin;
1.19.2. ikinci abzasda "müalicə idarəsi" sözləri "tibb müəssisəsi" sözləri ilə və "yuxarı səhiyyə idarələri" sözləri "aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və ya İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası ərazisinin sanitar mühafizəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:
2.1. 1.2-ci bənd üzrə:
2.1.1. birinci abzasa "Səhiyyə Nazirliyi" sözlərindən sonra "(bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin, həmin abzasda "nazirliyə tabe olmayan tibbi idarələrin" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;
2.1.2. ikinci abzasda "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə" sözləri "Nazirliklə" sözü ilə əvəz edilsin;
2.2. 1.4-cü bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və onun yerli orqanlarının" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin;
2.3. 1.5-ci bənddə "səhiyyə orqanları" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;
2.4. 1.6-cı bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə, "yerli səhiyyə orqanlarına, digər idarələrin tibbi xidmət sahələrinə" sözləri "tibb müəssisələrinə" sözləri ilə əvəz edilsin;
2.5. 1.7-ci bənddə "Səhiyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;
2.6. 1.8-ci bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə, "yerli səhiyyə orqanlarına, idarələrinə, təşkilatlarına" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələrinə" sözləri ilə əvəz edilsin;
2.7. 1.9-cu bəndin birinci cümləsində, 2.1-ci bəndin üçüncü abzasında "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin;
2.8. 2.13-cü bəndin ikinci abzasında "ərazinin tibb idarəsinin" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;
2.9. 2.25-ci bəndin ikinci cümləsində "Səhiyyə Nazirliyinin" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin;
2.10. 3-cü hissənin birinci cümləsində "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə, ikinci cümləsində "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin;
2.11. 4.1-ci bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə və "şəhər, rayon səhiyyə şöbələri, mərkəzi rayon xəstəxanaları, sanitar epidemioloji" sözləri "sanitariya-epidemioloji" sözləri ilə əvəz edilsin;
2.12. 4.5-ci bənddə "Səhiyyənin ərazi və inzibati təşkilat və idarələri" sözləri "Nazirlik və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;
2.13. 4.6-cı bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:
"Tibbi müşahidənin nəticələri əsasında zərurət yarandıqda Nazirliyin əsaslandırılmış göstərişi ilə müayinə aparılır.";
2.14. 4.8-ci bənddə "səhiyyə təşkilatının" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin;
2.15. 4.9-cu bəndin üçüncü abzasında "ərazi səhiyyə təşkilatlarının" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;
2.16. 4.11-ci bənddə "yerli səhiyyə təşkilatları" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;
2.17. 4.12-ci bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə müvafiq ərazi səhiyyə təşkilatının" sözləri "Nazirliyin və sanitariya-epidemioloji xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 avqust tarixli 438 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə"nin 3.10-cu bəndində aşağıdakı dəyişikliklər edilsin:
3.1. birinci abzasa "ərazi səhiyyə orqanlarına" sözləri "ərazi üzrə dövlət tibb müəssisələrinə" sözləri ilə əvəz edilsin;
3.2. üçüncü abzasda "Səhiyyə Nazirliyi" sözlərindən sonra "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri əlavə edilsin və həmin abzasda "təşkil edir" sözləri "təşkil edirlər" sözləri ilə əvəz edilsin.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:
4.1. 23-cü hissədə "səhiyyə şöbələri" sözləri "ərazi üzrə dövlət tibb müəssisələri" sözləri ilə əvəz edilsin;
4.2. 25-ci hissədə "təhsil və səhiyyə orqanları" sözləri "ərazi üzrə dövlət təhsil və tibb müəssisələri" sözləri ilə əvəz edilsin;
4.3. 31-ci hissədə "səhiyyə orqanlarının" sözləri "Səhiyyə Nazirliyinin" sözləri ilə əvəz edilsin;
4.4. 55-ci hissənin ikinci cümləsində "səhiyyə orqanları" sözləri "Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin;
4.5. 58-ci hissənin birinci cümləsində "Səhiyyə Nazirliyinin müvafiq idarə və" sözləri "dövlət" sözü ilə əvəz edilsin.
5. "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:
5.1. 2-ci hissəyə "Gənclər və İdman Nazirliyinə," sözlərindən sonra "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə," sözləri əlavə edilsin;
5.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların problemləri üzrə kompleks Proqram" üzrə:
5.2.1. 3-cü hissə üzrə:

5.2.1.1. birinci abzasa “baş idarələr” sözlərindən sonra “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

5.2.1.2. üçüncü abzasa “baş idarə” sözlərindən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

5.2.1.3. on dördüncü abzasın birinci cümləsində “səhiyyə müəssisələri” sözləri “dövlət tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

5.2.2. “5. Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə yönəldilmiş tədbirlər”in 5.1-ci bəndi üzrə:

5.2.2.1. yeddinci abzasın “Məsul idarə və təşkilatlar” sütununa “Səhiyyə Nazirliyi,” sözlərindən sonra “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,” sözləri əlavə edilsin;

5.2.2.2. doqquzuncu abzasın “Tədbirlər” sütununda “səhiyyə müəssisələrində” sözləri “dövlət tibb müəssisələrində” sözləri ilə əvəz edilsin və həmin abzasın “Məsul idarə və təşkilatlar” sütununa “Səhiyyə Nazirliyi” sözlərindən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

5.2.3. 5.5-ci bəndin ikinci-beşinci abzaslarında “Məsul idarə və təşkilatlar” sütunlarında “Səhiyyə Nazirliyi” sözləri “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

5.2.4. 5.6-cı bəndin ikinci abzasının “Tədbirlər” sütununda “müalicə müəssisələrinə” sözləri “dövlət tibb müəssisəsələrinə” sözləri ilə əvəz edilsin və həmin abzasa “Maliyyə Nazirliyi,” sözlərindən sonra “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,” sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 6, maddə 544; 2001, 1, maddə 70, 3, maddə 214; 2002, 2, maddə 100; 2007, 2, maddə 185, 8, maddə 847; 2008, 2, maddələr 123, 130; 2009, 10, maddə 857; 2015, 2, maddə 241; 2016, 3, maddə 587; 2018, 8, maddə 1814; 2019, 3, maddə 512) ilə təsdiq edilmiş “Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 7.3-cü bəndin birinci abzasının birinci cümləsində “yerli səhiyyə orqanları” sözləri “dövlət tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

6.2. 8-ci hissədə “səhiyyə orqanlarında” sözləri “dövlət tibb müəssisələrində” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 3, maddə 209; 2002, 3, maddə 148, 10, maddə 635; 2005, 7, maddə 678; 2006, 5, maddə 472, 10, maddə 902; 2010, 3, maddə 264; 2012, 12, maddə 1360; 2014, 12, maddə 1662; 2017, 12 (II kitab), maddə 2526; 2018, 12 (II kitab), maddə 2737; 2019, 8, maddə 1478; 2020, 6, maddə 804) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının qeydində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar”ın 4-cü hissəsinin on birinci abzasında və 5-ci hissənin ikinci abzasında “səhiyyə idarəsinin” sözləri “tibb müəssisəsinin” sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 5, maddə 337; 2003, 6, maddə 342; 2004, 10, maddə 871; 2016, 9, maddə 1585) ilə təsdiq edilmiş “Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydası”nın 1-ci hissəsindən “Səhiyyə Nazirliyinin,” sözləri çıxarılsın və həmin hissədə “Dövlət Sərhəd Xidməti,” sözləri “Dövlət Sərhəd Xidmətinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 8, maddə 555; 2005, 11, maddə 1065; 2006, 12, maddə 1161; 2007, 7, maddələr 737, 738; 2008, 1, maddə 36, 2, maddə 104, 6, maddələr 582, 584, 586, 7, maddələr 680, 681, 682; 2009, 7, maddə 609, 10, maddə 848; 2010, 6, maddə 566, 7, maddə 704, 8, maddə 760; 2012, 3, maddə 264, 6, maddə 636; 2013, 3, maddə 338, 4, maddə 440, 6, maddə 727, 10, maddələr 1201, 1213; 2014, 1, maddə 57, 5, maddə 586, 7, maddə 911; 2015, 4, maddələr 460, 480, 7, maddələr 887, 900, 10, maddə 1216; 2016, 5, maddə 956; 2018, 5, maddə 1123, 10, maddə 2144; 2019, 6, maddə 1151, 8, maddə 1449; 2020, 5, maddə 637, 6, maddə 808, 8, maddə 1135; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 sentyabr tarixli 327 nömrəli Qərarı) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı”nın “Memarlıq abidələri” bölməsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. “Səbail rayonu” hissəsinin 3279-cu bəndinin “Abidənin adı” sütununda “Bakı şəhər Səhiyyə İdarəsinin 1 nömrəli poliklinikasının” sözləri “A.H.Kazımov adına 1 nömrəli Şəhər Poliklinikasının” sözləri ilə əvəz edilsin;

9.2. “Yasamal rayonu” hissəsinin 3707-ci bəndinin “Abidənin adı” sütununda “Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat İnstitutu” sözləri “V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu” sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 4 (II kitab), maddə 215; 2005, 4, maddə 375; 2011, 5, maddə 449; 2015, 12, maddə 1582) ilə təsdiq edilmiş “Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.1-ci bənddən ismin müvafiq hallarında “Səhiyyə Nazirliyi,” sözləri çıxarılsın və həmin bəndə “yerli bölmələri” və “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözlərindən sonra “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

10.2. 2.3-cü bənddə “, Səhiyyə Nazirliyi və onların yerli orqanları” sözləri “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

10.3. 2.4-cü bənddən “Səhiyyə Nazirliyi,” sözləri çıxarılsın və həmin bəndə “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözlərindən sonra “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

10.4. 3.8-ci bənddə “və Səhiyyə Nazirliyinə” sözləri “, Səhiyyə Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

10.5. 4.5-ci bənddə “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**

**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 noyabr 2020-ci il
474